# Azərbaycan tarixinin zərif qəhrəmanlari

**Aynur Abbasova**[1]

https://doi.org/10.5281/zenodo.7296820

**Xülasə**

Tarix boyu Azərbaycanda qadının ailə və cəmiyyətdə rolu danılmazdır. Azərbaycan ədəbiyyatının görkəmli yazıçısı, ədəbiyyatşünas, tarixi romanlar müəllifi kimi tanınmış Əzizə Cəfərzadə əsasən tarixi hadisələri, tarixi şəxsiyyətləri və qəhrəman qadınların göstərdiyi rəşadətləri romana çevirmişdir. Əzizə Cəfərzadə tarixi romanlarında elmi faktlara söykənən qaynaqlardan bəhrənələrək dövrün problemlərini göstərə bilmişdir.

**Açar sözlər:** tarix, zərif, roman, mübarizə, vətən, hünər

## Gentle heroes of Azerbaijan history

Throughout the history of Azerbaijan, the role of women in the family and society is undeniable. Aziza Jafarzadeh, who is known as an outstanding writer of literature, literary critic, author of historical novels, mainly turned historical events, historical personalities and the bravery of heroic women into novels. Aziza Jafarzade was able to show the problems of the time by using sources based on scientific facts in her historical novels.

**Key words:** history, elegant, novel, struggle, motherland, skill

## Giriş

Azərbaycanın görkəmli yazıçıları tarix boyu qəhrəman qadınlarımızın adlarına romanlar, poemalar həsr etmiş, onların adlarını yaşatmış, gələcək nəsillərimizə ötürmüşlər. Bu yazıçılardan biri də, əsərlərini müxtəlif janrlarda yazsa da, əsasən tarixi romanlar müəllifi kimi tanınmış Əzizə Cəfərzadədir. Yazıçı yazdığı tarixi romanlarda qadınlarımızın apardıqları mübarizələri, yalnız torpaqlarımızı düşmənlərdən qorumaq uğrunda təsvir etməyib. Həm də qadınların zəmanə haqsızlıqlarına qarşı apardıqları mübarizələri əks etdirmişdir. Öz əsərlərində qədim dövrlərdən tutmuş XX yüzilliyə qədər Azərbaycan tarixinin mürəkkəb, keçməkeşli hadisələrini bütün təfərrüatı ilə canlandırmışdır. Yazıçı tarixi yalnız fakt və sənədlər əsasında təsvir etmir, ona bədiilik, canlılıq, obrazlılıq əlamətləri vermişdir. Əzizə Cəfərzadənin tarixi romanları xalqımızın tarixi dəyərlərini, etnoqrafiyasını əks etdirən qiymətli əsərlərdir.

Həyatı boyu xeyriyyəçiliklə məşğul olan Əzizə Cəfərzadə erməni təcavüzünə qarşı hərəkatda hər zaman fəal iştirak etmişdir. Ona göstərilən təyziqlərə baxmayaraq yazıçı tariximizin qəhrəmanlarını yaşatmaq üçün əlindən gələni etmişdir. Məhz elə buna görə Əzizə Cəfərzadə əsl qəhrəmandır. Onun "Bakı-1501", "Bəla", "Bir səsin faciəsi", "Vətənə qayıt", "Aləmdə səsim var mənim", "Eldən elə", "Gülüstandan öncə" və başqa tarixi romanlarında Azərbaycanda və qonşu ölkələrdə insanların məruz qaldığı ağır zülmlər, qadınların zəmanə haqsızlığına qarşı mübarizələri, ölkədaxili müharibələr və özbaşınalıqlar əks olunur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Azərbaycan tarixinin bütün dövrlərində böyük fitri istedada, dərin zəkaya, möhkəm iradəyə malik şair, hökmdar, döyüşçü

[1] Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin akademik məsləhətçisi, "Azərbaycan dili və ədəbiyyatı" kafedrasının saathesabı müəllimi, "Azərbaycan dili" ixtisası üzrə dissertantı, aynurabbasova1987@gmail.com

qadınlar fəaliyyət göstərmişlər" (Əliyev, H. 2008: 399) Tarix boyu xalqımızın oğul və qızları Azərbaycanın bütövlüyü uğrunda hər zaman mübarizə aparmış, canlarından keçmişlər. Qəhrəmanlıq yalnız oğullara məxsus deyildir. Hər zaman Azərbaycanın mərd qadınları igid oğulları ilə birgə çiyin-çiyinə vuruşmuş, vətənimizi, elimizi düşmənlərdən qorumuşlar. Vətənə məhəbbəti, sədaqəti ilə, mərdliyi ilə tarix yazan qadınlarımızın həyatları dastana, romana çevrilmişdir. Onların arasında diplomatlar, hökmdarlar, sərkərdələr, döyüşçülər olmuşdur. Massagetlərin hökmdarı Tomris, Kitabi Dədə Qorqud dastanında Burla Xatun, Banu Çiçək, Selcan xatun, Türk dünyasının igidi Koroğlunun Nigarı, Qaçaq Nəbinin ömür-gün yoldaşı Həcər, N.Gəncəvinin "Xosrov və Şirin" poemasında Bərdə hökmdarı Nüşabə, Eldənizlər dövlətinin hökmdarı Atabəy Şəmsəddin Eldənizin həyat yoldaşı, Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın anası Mömінə xatun (adının şərəfinə Naxçıvan şəhərində Memar Əcəmi tərəfindən məqbərə ucaldılmışdır), Azərbaycanın ilk diplomatik qadını, Ağqoyunlu hökmdarı Uzun Həsənin anası Sara xatun, Azərbaycanda, Qafqazda, həmçinin bütün Cənubi Avropada və Ön Asiyada ilk qadın təyyarəçi, Sovet İttifaqının ilk qadın paraşütçüsü Leyla Məmmədbəyova və başqa qadınlarımız vətənimiz uğrunda gedən müharibələrdə kişilərlə bərabər böyük hünər göstərmiş, siyasi və dövlət quruculuğu sahəsində əsl vətənpərvərlik nümunələri göstərmişlər.

1988-ci ildən erməni qəsbkarlarının torpaqlarımıza təcavüz etməyə başladıqları andan bəri Azərbaycanın qəhrəman qızları igid oğullarımızla çiyin-çiyinə vətənimizin bütövlüyü uğrunda mübarizə aparmışlar. Bunlardan Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş ilk şəhid qadın jurnalist Salatın Əsgərova, 1992-ci il Qarabağ döyüşlərində şəhid olan Gültəkin Əsgərova, Qaratel Hacımahmudova və başqa qəhrəman qadınlarımız torpaqlarımızın bütövlüyü uğrunda canlarını qurban vermişlər.

Əzizə Cəfərzadə əsasən Azərbaycan tarixinin qadın qəhrəmanlarının mübarizələrlə dolu həyatlarını romana çevirmişdir. Azərbaycan ədəbiyyatında tarixi romanların yaranması XX əsrin 30-40-cı illərinə təsadüf edir. Tarixi romanların yaranması xalqın kökünü, soyunu, tarixinin inkişaf yollarını daha çox öyrənmək üçün mənbə rolunu oynayır. Filologiya elmlər doktoru, professor Yavuz Axundlu qeyd etmişdir ki, "*Müasir tarixi romanda daha çox xalqın keçmişinin əlamətdar hadisələri, dönüm dövrləri, xalqın taleyində mühüm rol oynamış görkəmli şəxsiyyətlərin fəaliyyəti təsvir olunur. Yazıçı çalışmalıdır ki, tarixi romanda qələmə aldığı dövrün ruhu saxlanılsın, tarixi inkişafın qanunauyğunluqları gözlənilsin* (Axundlu,Y. 2005: 547).

Əzizə Cəfərzadə Azərbaycan tarixində ən böyük rol oynayan Səfəvilər dövlətinin qurucusu Şah İsmayıl Xətai haqqında yazdığı "Bakı-1501" romanı onun ilk tarixi romanıdır. Romanda Azərbaycan ərazisində baş verən müharibələrdən və dini çəkişmələrdən bəhs edilir. Roman cəmi üç fəsildə (Bakı-1501, Qanlı-qadalı illər, Hökmdarın şair ürəyi) verilmişdir. Hadisələr dörd əsas surət – Bibxanım-Sultanım, Aytəkin, dərviş İbrahim və Şah İsmayıl Xətai ətrafında cərəyan edir.

"Bakı-1501" romanında diqqəti çəkən əsas qadın surətlərindən biri Bibixanım-Sultanımdır. Şirvanşah Fərrux Yasarın oğlu Şahzadə Qazı bəyin nikahlı həyat yoldaşı idi. Şirvanşah Fərrux Yasarla Şah İsmayıl arasında gedən döyüşlər zamanı Fərrux Yasar və Şahzadə Qazi bəy həlak olsa da, yazıçı romanda Sultanım xanımın Bakını qorumaq üçün göstərdiyi qəhrəmanlığı, rəşadəti qələmə almışdır. Sultanım xanımın Şah İsmayılla son döyüşünə qədər onun qadın olduğunu heç kim bilmirdi. O, Şah İsmayıl Xətai ilə təkbətək döyüşdə onun analıq duyğusu ona bir uşağa, 15 yaşda olan bir gəncə, Şah İsmayıla qıymağa izn vermədiyi üçün atına minərək oradan uzaqlaşmışdı. Romanın digər əsas qadın surətlərindən biri də Aytəkindir. Səfəvilər dövləti qurulduğu zaman Azərbaycanın bir çox ərzilərində dinc əhali qılıncdan keçirilmiş, evləri yandırılmışdır. Şah İsmayıl Xətai qoşunu ilə birlikdə Şamaxıya gedən yol boyu bütün kəndlərdə kəlmeyi-şəhadətə *Əliyyən vəliyullah* kəlməsini əlavə etmək istəməyən hər kəsi qılıncdan keçirirdi. Xəzər dənizi sahilində "Govurqazan" adlı bir kənddə məhv edilmiş ailələr içərisində Aytəkinin ailəsi də var idi. Aytəkinin

gözləri önündə ailəsi öldürülmüş, qardaşı Güntəkinin boynu vurulmuşdu. Aytəkin isə bir müddət sonra Şah İsmayıl Xətaidən qisas almaq üçün onu xəncərlə öldürmək istəsə də buna nail ola bilməmişdi. Buna baxmayaraq Səfəvilər və Osmanlılar arasında 1514-cü il avqustun 23-də Çaldıran düzündə (Maku şəhəri yaxınlığında) baş verən müharibədə Aytəkin kişi paltarı geyinərək qoşunla birlikdə qəhrəmanlıqla döyüşmüş və həlak olmuşdur. Aytəkinlə bərabər Şahzadə Qazi bəyin həyat yoldaşı, cəngavər qadın Sultanım xanım da döyüşürdü. Əzizə Cəfərzadə romanda Şah İsmayılın həyat yoldaşlarından Bəhruzə xanım və Taclı Bəyimin də döyüşdə göstərdikləri rəşadətləri təsvir etmişdir. Yazıçı romanın sonunda Şah İsmayıl Xətainin Aytəkin və Sultanım xanım haqqında dediklərini qeyd etmişdir: *"Sağ-sol cinahımda üzü niqablı vuruşanların kim olduğunu bilmirdim. Sadiqlərim sanırdım. Yalnız oxlanıb yerə yıxılanda tanıdım bədbəxtləri: biri gözəl sənətkar rəqqasə, mənə böyük nifrətinin səbəbini bilmədiyim Aytəkin, biri də bakılı cəngavər qadın, Qazi bəyin arvadı Sultanım xanım idi. Onları da Vətən çağırmışdı"*. Səfəvilər dövlətinin hökmdarı Şah İsmayıl Xətai Azərbaycan gənclərinə vəsiyyətində yazır: *"Vətənin bir sıxma torpağını bir ovuc qızıldan, dilimizin bir kiçicik sözünü bir ölçü ləl-cəvahiratdan üstün bildim. Əgər zövqünüzü oxşasa – məzarımda bir qədər rahat ola bilərəm. Sizə üç əmanət qoyub ərən babalar: dilimiz, qeyrətimiz, Vətənimiz – can sizin, can onlar əmanəti"* (Cəfərzadə, Ə. 2016: 348).

Əzizə Cəfərzadənin faciəli həyatını romana çevirdiyi digər zərif qəhramanlardan biri də "Bir səsin faciəsi" romanında XIX əsrdə yaşayıb-yaratmış Azərbaycanın ilk peşəkar qadın xanəndəsi Mirzə Güllər idi. Əzizə Cəfərzadə Mirzə Güllərin hökm sürən dini ehkamlara, zəmanəsinin haqsızlığına qarşı apardığı mübarizəni əks etdirmişdir. O dövrdə məclislərdə çadrasız görünmək yasaq olduğu üçün kişi paltarı geyinərək toylarda, şənliklərdə çıxış edərdi. Onun səsi Şirvan, Muğan torpağında, Tiflis, Bakı, Gəncə kimi böyük şəhərlərdə eşidilirdi. Mirzə Güllərin Kiyevdə bir neçə muğam və mahnıları qrammafon valına yazılmışdır. Əzizə Cəfərzadə ömrünü incəsənətə, musiqiyə həsr edən, dini ehkamların hökm sürdüyü zamanda bir qadının göstərdiyi cəsarətini, faciə ilə bitən həyatını qələmə almışdır (Cəfərzadə Ə. 2021: 150).

**Nəticə**

Qadınlar zərif varlıqlardır. Buna baxmayaraq onlar ən güclü varlıqlardır. Azərbaycan qadınlarının tarixdə rolu danılmazdır. Azərbaycan qadınları tarix boyu vətənini qoruyan, hər an Vətən üçün canını qurban verən oğullar və qızlar dünyaya gətirmişlər. Bugün vətənimizi, dilimizi, tariximizi, milli dəyərlərimizi yaşadan, və milli ruhda tərbiyə olunan gənclərimiz olduğu üçün analarımıza – zərif qəhrəmanlarımıza borcluyuq.

Məqalə Azərbaycan tarixinin qadın qəhrəmanlarının göstərdikləri nümunəvi vətənpərvərliyə görə adlarının dastanlarda, poemalarda, romanlarda yaşadılıb, gələcək nəsillərə ötürülməsi ilə nəticələnir.

**Ədəbiyyat siyahisi**

Cəfərzadə, Ə. (2016). Bakı-1501, Bakı: Xan nəşriyyatı, 348 s.
Cəfərzadə, Ə.(2022). Bir səsin faciəsi, Bakı: Xan nəşriyyatı, 150 s.
Əliyev, H. (2008). Müdrik fikirlər, Bakı: Çaşıoğlu nəşriyyatı, 399 s.
Axundlu,Y. (2005). Azərbaycan tarixi romanı, mərhələlər, problemlər, Bakı: Adiloğlu nəşriyyatı, 547 s.